

# Mevla görəlim neylər, Neylərsə gözəl eylər.

## Ərzurumlu İbrahim Hakkı

Haqq şərləri xeyr eylər,
Arif onu seyr eylər.
Zənn etmə ki, qeyr eylər, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Sən Haqqa təvəkkül qıl,
Səbr eylə və razı ol.
Tevfiz et[1] və rahat bul, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Qəlbin ona bərk eylə,
Təqdirini dərk eylə.
Tədbirini tərk eylə, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Bil kadi ül-hacati[2],
Tərk eylə müradatı.
Qıl ona münacatı, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Bir işi murad etmə,
Haqdandır o rədd etmə.
Olduysa inad etmə, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Haqqın olacaq işlər,
Ol hikmətini işlər.
Boşdur qəm u təşvişlər, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Həp işləri faiqdir,
Neylərsə müvafiqdır.
Bir-birinə layiqdir, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Dildən qəmı dur[3] eylə,
Tefvizi-umur[4] eylə.
Rəbbinlə hüzur eylə, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Sən ədli zülüm sanma,
Səbr et saqın usanma.
Təslim ol oda yanma, -



Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Demə şu neyçün şöylə,
Bax sonuna, səbr eylə.
Yerincədir ol öylə, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Heç kimsəyə xor baxma,
Sən nəfsinə yan çıxma.
İncitmə könül yıxma, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Mömin işi rəng olmaz,
Arif dili təng olmaz.
Aqil huyu[5] cəng olmaz, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Xoş səbir cəmilimdir,
Allah ki, vəkilimdir.
Təqdir kəfilimdir, - [6]
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Hər dildə onun adı,
Hər quladır imdadı.
Hər canda onun yadı, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Naçar qalacaq yerdə,
Dərman edər ol dərdə.
Nagah açar ol pərdə, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Hər quluna hər anda,
Hər anda o bir şanda.
Gah qəhr u gah ehsanda, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Gah muti[7] vu gah mani,[8]
Gah hafıd[9] u gah rafi.[10]
Gah darr[11] u gahi nafi, - [12]
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Gah abdin[13] edər arif,
Hər qəlbi Odur sarif. [14]
Gah emin u gah haif, - [15]
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Gah qəlbini boş eylər,
Gah eşqinə düş eylər.
Gah xalqını xoş eylər, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Gah sadə vü gah rəngin,[16]
Gah təbın[17] edər səngin.[18]
Gah xürrəm[19] ü gah qəmgin, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Az ye, az uyu, az iç,
Dil[20] gülşəninə gəl güç.
Tən məzləbəsindən[21] keç, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Bu nas[22] ilə yorulma,
Qəlbindən irağ olma.
Nəfsinlə dəxi qalma, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Keçmişlə geri qalma,
Hal[23] ilə dəxi olma.
Müstəqbələ[24] həm dalma, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Hər dəm Onu zikr eylə,
Zirəkliyi koy şöylə.
Heyrani-Haqq ol söylə, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Gəl heyrətə dal bir yol,
Qoy qəfləti hazır ol.
Kəndin unut onu bul, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Hər sözdə bir nəsihət var,
Hər işdə qənimət var.
Hər nəsnədə zinət var, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Həp rəmz ü işarətdir,
Həp qamz[25]ü bəşarətdir. [26]
Həp ayni-inayətdir, - [27]
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Hər söyləyəni dinlə,
Ol söylədəni anla.
Xoş eylə qəbuli-canla, -
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Bil əlsinei-xalqı,[28]
Əklami-Haqq ey Haqqı.[29]
Öyrən ədəb ü hulqı, - [30]
Mevla görəlim neylər,
Neylərsə gözəl eylər.

Vallahi gözəl etmiş,
Billahi gözəl etmiş.
Tallahi gözəl etmiş, -
Mevla görəlim netmiş,
Netmişsə gözəl etmiş.

*1. tevfiz - işləri Allaha buraxmaq*
*2. kadi ül hacat - bütün ehtiyacları yerinə gətirən*
*3. dur - uzaq*
*4. tefvizi-umur - əzəli qismətə güvənmək*
*5. huy - təbiət, xarakter*
*6. kəfil - zamin*
*7. muti - nemət verən*
*8. mani - əngəl edən*
*9. hafid - alçaldan*
*10. rafi - ucaldan*
*11. darr - zərər verən*
*12. nafi - fayda veren*
*13. abd - qul*
*14. sarif - dəyişdirən*
*15. haif - qorxaq, ürkək*
*16. rəngin - rəngli*
*17. təb - təbiət*
*18. səngin - daş kimi sərt*
*19. xürrəm - sevincli*
*20. dil - könül*
*21. məzləbə - zibillxana*
*22. nas - insanlar*
*23. hal - indi*
*24. müstəqbəl-gələcək*
*25. qamz - göz qırpma*
*26. bəşarət - müjdə*
*27. ayni-inayət - lütf bulağı*
*28. əlsinei-xalq - yaradılmaişların dili*
*29. Əklami-Haqq - Yaradanın sözləri*
*30. hulk - gözəl hallar*